**UOT 78.071:78.02**
**ORCID: 0000-0002-2612-3389**
**DOI: 10.52094/TQUU2395**

**Leyla Zöhrabova Ramiz qızı**
**Azərbaycan Bəstəkarlar İttifaqı**
**Sənətşünaslıq üzrə elmlər doktoru, dosent**
leylazoxrabova@gmail.com

# DÜNYA ŞÖHRƏTLİ BƏSTƏKAR FİRƏNGİZ ƏLİZADƏ: "ZƏFƏR" MARŞI

**Xülasə:** Təqdim olunan məqalədə Azərbaycan Bəstəkarlar İttifaqının sədri, Xalq artisti, UNESCO-nun "Sülh artisti", AMEA-nın müxbir üzvü, "Şöhrət" və "Şərəf" ordenli, professor Firəngiz Əlizadənin "Zəfər marşı" təhlil obyektinə çevrilmişdir. Burada bəstəkarın vətənpərvərlik mövzusuna həsr olunmuş əsərləri, onların ilk dəfə ifa olunan konsert salonları haqqında məlumat verilmiş, həmçinin marş janrının ilkin yaranma dövründən başlayaraq sərhədlərinin aşması, digər janrlar ilə əlaqələrin güclənməsi, konsert musiqisinə keçərək öz janrının əsas mahiyyətini saxlaması, eləcə də iri həcmli əsərlərin daxilində istifadə olunması haqqında məlumat verilmişdir. Xüsusilə "Zəfər marşı" timsalında yuxarıda deyilənlər əsaslandırılmış, əsərin yaranma tarixi, ifa olunan məkanları, not nəşrləri, eləcə də əyani not nümunəsi əsasında nəzəri aspektlər üzrə təhlillər aparılmışdır.

**Açar sözləri:** Firəngiz Əlizadə, "Zəfər marşı", marş janrı, vətənpərvərlik mövzusu, məqam, forma, təhlil.

Müasir Azərbaycan musiqi mədəniyyətində yeni inkişaf təmayüllərinə nəzər yetirdikdə bu sahədə irəliyə doğru atılan addımlardan ən başlıcası müasir dünyagörüş ilə həmahənglik təşkil edən görkəmli sənətkarlar diqqəti cəlb edir. Bu baxımdan birincilər sırasında biz Azərbaycan Bəstəkarlar İttifaqının sədri, Xalq artisti, UNESCO-nun "Sülh artisti", AMEA-nın müxbir üzvü, "Şöhrət" və "Şərəf" ordenli, professor Firəngiz Əlizadənin adını xüsusilə qeyd etməliyik. Dünya musiqi mədəniyyətində özünəməxsus yaradıcılıq dəsti-xəttini tanıdan, bununla xarici auditoriyanı özünə valeh edən, həmçinin Azərbaycanın milli musiqi mədəniyyətini müasir yazı üslubu ilə dünyada tanıtmağı qarşısına əsas məqsəd qoyub buna yüksək surətdə nail olmağı bacaran Firəngiz xanım Qərb

musiqi mədəniyyətinə Şərqin musiqisini gətirmişdir: *"Firəngiz Əlizadə Çingiz Aytmatovun kitabları kimi Qərb qarşısında Şərqi açmışdır. Biz uzaq, lakin qeyri-adi dərəcədə musiqili xalqın əngəlliklərindən pərvazlanan nəğməkar qəlbini eşitdik"* [1, s. 23]. Dünyanın bir çox şəhərlərinin ən mötəbər konsert salonlarında, Firəngiz xanımın əsərlərinin premyeraları baş tutur. Bunlar içərisində "Cernegie Hall" (ABŞ), "Auditorium" (Roma), "Muzikzentrum", "Consertgebouw" (Niderland, Amstertdam), "Qrand Opera" (ABŞ Hyuston), "Miller Theater", "Linkoln Center" (Nyu-York), "Royal Festival Hall" (London), "Landestheater Coburg" (Almaniya) və s. konsert salonlarını misal göstərmək olar. Konsert salonlarının bir çoxunda Firəngiz xanım ilk azərbaycanlı sənətkarıdır ki, əsərləri orada ifa olunur. Həmin konsertlər daima anşlaq ilə keçərək auditoriyanın ruh yüksəkliyi, sürəkli alqışları ilə qarşılanır.

Müasir dövrün ən aktual məsələləri Firəngiz Əlizadəni həmişə düşündürmüş və o, daim bu mövzuya öz yaradıcılığında geniş yer ayırmışdır. Bu baxımdan Azərbaycan tarixində çox əlamətdar günlərdən biri olan Zəfər bayramı, onun qələmindən kənar qala bilməzdi. Ümumiyyətlə onu deyək ki, II Qarabağ müharibəsində əldə etdiyimiz qələbə incəsənət sahəsində çalışanların bir çoxuna böyük ilham mənbəyi olmuşdur. Çünki illər öncə bunu səbirsizliklə gözləyən Azərbaycan xalqı bu sevinci yaxın keçmişdə Müzəffər Ali baş komandanımız İlham Əliyev və Şanlı ordumuzun sayəsində yaşadı. Bu sevinc hamımıza böyük ruh yüksəkliyi verdi. 30 ildən çox zamanda işğal altında olan torpaqlarımız məhz 44 günlük böyük mübarizədən sonra azad oldu. Bu mübarizə əbədi olaraq xalqımızın tarixində nəinki yaşayacaq, heç vaxt unudulmayacaqdır. Çünki bu böyük mübarizəni nə unutmaq, nə də hafizələrdən silmək mümkündür. Bu səbəbdən Ali baş komandanımız İlham Əliyevin 2020-ci il 3 dekabr tarixli Sərəncamı ilə 8 noyabr Azərbaycan xaqının Zəfər günü kimi əbədi olaraq qeyd olunması da parlaq nümunədir.

Sevindiricidir ki, musiqi sahəsində 30 illik həsrəti özündə əks etdirən və işıqlı gələcəyin ümidi ilə yaşayan sənətkarlarımıza öz əsərlərində nəinki bu illərin niskinliyini, xalqımızın acı taleyini, əzab əziyyətini təqdim etmək qismət oldu, bu acı tarixi hadisələr ilə yanaşı hamımızın uzun illər sevinclə gözlədiyimiz qələbə ilə bağlı əsərlər də yazmaq nəsib oldu. Ümidvarıq ki, bu mövzu daim bəstəkarlarımızın qələmində ən aparıcı mövzuya çevriləcək və bundan sonra daha da geniş vüsət alacaqdır.

Firəngiz Əlizadənin yaradıcılığında Vətən mövzusu, onun ağrılı acılı səhifələri, sevincli və xoşbəxt günləri, hələ illər öncə yazılan əsərlərdə qələbəyə

inam hissi diqqət mərkəzindədir. Bu mənada Nəbi Xəzrinin sözlərinə bəstələnən, doğma Vətənini vəsf edən, onun firavan günlərini əks etdirən 3 solist, xor və orkestr üçün 8 hissəli "Vətən nəğmələri" oratoriyası; Qarabağın işğaldan azad olunması və qələbənin inamı ilə yaşayan xalqın taleyi, qələbəni illər öncə əsərində Ağ atlı oğlanın görünməsi ilə təsvir edən "İntizar" operası; ilk dəfə Roma şəhərinin Müasir İncəsənət Mərkəzində səhləşdirilən, İsrail ilə Fələstin münaqişəsindən bəhs olunan "Al-Kamandjati" ("Skripkaçı") adlı musiqili dram tamaşası; azərbaycanlı xanəndə Seymur ilə amerikalı rəssam Dəniz arasında olan məhəbbət mövzulu "Sənin adın Dənizdir" operasında da Dənizin öz Vətəninə olan sevgisinin ön planda olması, əsərin əsas məzmun dairəsini təşkil etmişdir. Vətən mövzulu əsərləri içərisində "Abşeron", "Xəzər", "Yanardağ", "Azərbaycan rapsodiyası" və s. adları da unuda bilmərik. Bu əsərlər*"Dünyanın hansı yerində ifa olunsa da, məhz bu adlarla maraqlanan dinləyici tapılacaq və o vaxt da Azərbaycan adı böyük coğrafi məkanın, planetin hər yerinə Firəngiz Əlizadə musiqisi vasitəsilə yayılacaq"* [2, s.5].

Haqqında söz açdığımız "Zəfər marşı" bu qəbildən olan parlaq əsərlərdən biridir. Sözləri və musiqisi Firəngiz Əlizadəyə məxsus olan əsər 2020-ci ildə yazılmış və II Vətən müharibəsinin parlaq Zəfərinə həsr olunmuşdur.

Ümidvarıq ki, parlaq qələbəmizin sədaları Firəngiz xanımı ilhamlandırdığı kimi, digər incəsənət xadimlərinə də daha çox bu mövzuda əsərlərin bəstələnməsinə şövq etmişdir. F.Əlizadə 2021-ci ildə verdiyi müsahibədə belə söyləmişdir: *"Bütün Azərbaycan xalqı kimi Bəstəkarlar İttifaqının üzvləri də müharibədən sonra ruh yüksəkliyi yaşayır. Bəstəkarlarımız şəhidlərimizə və qazilərimizə həsr olunan əsərlər bəstələyir*" [3, s.119].

Mətbuat səhifələrində "Zəfər" marşı haqqında qeyd olunub: *"Əsər 3 kişi xorunun – Xor kapellasının, Opera teatrının xorunun, Azərbaycan Televiziya və Radiosu xorunun və xalq artisti Fəxrəddin Kərimovun dirijorluğu ilə Ü.Hacıbəyli adına Azərbaycan Dövlət Simfonik orkestri tərəfindən ifa edilmişdir. Solo muğam hissəsini xanəndə Vüqar Əliyev oxumuşdur"* [3, s. 119].

Marş partitura şəklində 2020-ci ildə "Şanlı Zəfərə" həsr olunan Azərbaycan bəstəkarlarının xor və simfonik orkestr üçün əsərləri" adlı kitabda dərc olmuşdur. Qeyd edək ki, Firəngiz xanımın bədii rəhbərliyi ilə bu dərc Bəstəkarlar İttifaqının "Şanlı Zəfərə" həsr olunan Azərbaycan bəstəkarlarının xor və simfonik orkestr üçün əsərləri" layihəsi əsasında baş tutmuşdur. Birinci clddə Firəngiz Əlizadənin "Zəfər marşı" ilə yanaşı, Cəlal Abbasovun "Şanlı Azərbaycan", Məmməd Cəfərovun "Nər oğlum!", Rəna Qədimovanın

"Azərbaycanım", Sərdar Fərəcovun "Azad Şuşa" əsərləri də dərc edilmişdir. Onu da qeyd edək ki, həmin layihə əsasında 3 cildin işıq üzü görməsi nəzərdə tutulub. Hal-hazırda artıq iki cild nəşr olunub.

44 günlük Vətən müharibəsinin qələbəsinə həsr olunan "Zəfər marşı" *"....ilk dəfə Mədəniyyət kanalında video-formatda təqdim edilmişdir. Sonra bu marş 2021-ci ilin noyabrın 2-də Zəfər bayramı ərəfəsində "Qarabağ Azərbaycandır" devizi ilə Heydər Əliyev sarayında keçirilən Azərbaycan bəstəkarlarının əsərlərindən ibarət konsertdə səslənmişdir"* [3, s. 118]. Onu da qeyd edək ki, əsərin xor və fortepiano üçün işləməsinin notları da 2020-ci ildə dərc olunmuşdur.

Video format [8] ilə not məcmuəsində [7] bir qədər fərqlilik diqqəti cəlb edir. Burada sanki iri həcmli quruluş kompozisiyası görüntü ilə uzlaşdırılır. Həmçinin orta hissədə mövzunun kontrastlı şəkildə dəyişilməsi bəstəkarın yaradıcılıq dünyasının genişliyini təsvir edir. Müəllif çox incə ruhu ilə bu mövzuya yanaşaraq, onu musiqi vasitəsilə təsvir etməyə müvəffəq olur. Orta hissədə qəfil şəkildə improvizasiyalı muğam parçası skripka alətinin ifasında eşidilir və bu əsərin ümumi konsepsiyasına böyük kontrastlıq gətirərək, döyüşdə şəhid olan igidlərimizin obrazını yaradır. Xalqın ağrı-acılı səhifələrinin dərin hüzn ilə anmaları təsvir olunur. Bununla bəstəkar marşın xarici görsənən qatı ilə bərabər, zahiri əlamətlərin daxili qatını açmağa çalışır.

"Zəfər" marşını dinlədikcə onu təkcə marş kimi qəbul etmək olmur, o əsl vətənpərvərlik himnidir. Bu sanki böyük kompozisiyanın təqdimatıdır. Hər bir xırdalıq zərgər dəqiqliyi ilə gözlənilmiş və əsərin ümumi konsepsiyasına sirayət etmişdir. Bu parlaq hisslərin, vətənpərvərlik ruhunun, zəfər sevincinin vəhdətdə təcəssümüdür.

Məlumdur ki, marşın üç əsr yarım bundan öncə ilk yaranan formasından sonra bu janrın sərhədləri tədricən aşaraq akademik musiqi janrı kimi formalaşmışdır. Belə ki, marşda digər janrlar ilə əlaqələr yaranaraq, onun əsas xüsusiyyətlərinin zənginləşməsi baş vermiş, ən əsası isə müstəqil əsər kimi mövcudluğuna şərait yaradılmışdır. "*Əsas janrlar tez-tez teatr və konsert musiqisinə bütöv şəkildə keçir, bəzi hallarda hətta öz janr təyinatını saxlayır"* [4, s.299]. Bunun nəticəsində janr adı *"təkcə tam əsərlərə deyil, həm də formaca kifayət qədər tamamlanmış olan əsərlərin hissələrinə də"* aid edilir [5, s. 65]. Buna bariz nümunə marşların, xalq mahnı və rəqslərin professional bəstəkarların iri həcmli əsərlərində (opera, simfoniya və s.) və ya kiçik həcmli kamera, kamera vokal əsərlərdə istifadə olunmasına gətirib çıxarır. Nəticədə məişət xarakterli

janr daha çox konsert tipli məkanlarda səslənməyə başlayır. Məhz bununla məişət janrları akademikləşərək tətbiq olunma məqsədindən kənara çıxarılır.

Marşın təkcə müstəqil əsər kimi deyil, həm də yuxarıda qeyd etdiyimiz musiqi formaları daxilində mövcudluğu olduqca vacib xüsusiyyət olaraq əsas janr xüsusiyyəti kimi qəbul edilə bilər. Bu isə marşa mütərəqqi yanaşma üçün bünövrə olaraq musiqi nəzəriyyəsi kontekstində yeni ümumiləşdirmələrin aparılmasına səbəb olur.

Marşın əsas finksiyası insan kütləsinin birlikdə hərəkətinin sinxronlaşmasını təmin etməsidir. Bu baxımdan tarixi ekskursda marş çox sıx surətdə hərbi mühit ilə əlaqəli olub, eyni və dəqiqləşmiş hərəkəti tənzimləyərək hərbi hazırlığı və qalibiyyətin əldə olunmasını təmin edir. Onu da əlavə etmək lazımdır ki, marş qədim zamanlardan bəri ən əhəmiyyətli qələbələri qeyd edən zəfər yürüşlərini müşayiət etmək üçün istifadə edilirdi. Marş əvvəlcə bir tərəfdən hərbi janr, digər tərəfdən isə ritual və mərasim janrı kimi ortaya çıxmışdır. Hər birinsində ortaq funksiya hərəkətin sinxoronlaşması idi. Yalnız hərbi şəraitdə istifadə edilən marş yeni mühitin müxtəlif ehtiyaclarını ödəyə bilmədi. Nəticədə bu mühitin meyarlarına uğun gələn fərqli məzmunlu və eləcə də digər keyfiyyətlərə malik marşlar meydana gəldi. Bu səbəbdən marşı sırf hərbi janr kimi qəbul etmək düzgün olmaz. Əksər marşlar tempinə görə 2 qrupa cəld və yavaş marşlara bölünür. Yavaş marşların əksəriyyəti şən, təntənəli, zəfər tipli olaraq mahnı və rəqs xarakterli cəld marşlardan fərqlənirlər. Haqqında söz açdığımız “Zəfər” marşı məhz yavaş marşlara misal olaraq bütün xüsusiyyətləri özündə cəmləşdirir.

“Zəfər” marşı bənd-nəqərat quruluşludur. Maraqlıdır ki, hər bənd 8 misradan, nəqərat isə 2 misradan ibarətdir. Bənd dəqiq heca saylı, nəqərat isə isə dəyişkən heca saylıdır. Yəni, bəndin hər bir şeir misrası 9 hecadan, nəqəratın isə ilk misrası 9, ikinci misrası isə 12 hecadan təşkil olunub. Ümumilikdə 2 bənd və nəqərat formalı şeir nümunəsində bu fərqli amil kimi qeyd oluna bilər. Əyani olaraq bir bənd və nəqəratı təqdim edək:

**I bənd**

Yenilməz Türklərin oğluyam,
Haqq işin, namusun dostuyam.
Dözmərəm xalqımın zülmünə
Uğrunda ölərəm, ey Vətən.

Hər qarış torpağın müqəddəs,

Qüdrətin, saflığın tükənməz.
Qanına susamış düşmənlər
Üz-üzə gələcək əsgərlə.
**Nəqərat**
Qəhrəman ruhuna sadiqəm,
Sən səslə, ey Vətən, hər an mən hazıram.

Şeirdə qəhrəman igidlərimizin dilindən söylənilən fikirlər o qədər ruh yüksəkliyi, daim irəliyə inamı ilə seçilir ki, onları möhkəm olmağa, qələbəyə olan inama səsləyir. Vətənə olan müraciət "Uğrunda ölməyə hazıram", "Dönmərəm yolumdan", "İrəli atəşli sabaha" kimi misraları, firavan gələcəyə inam "Bayrağın əbədi qalxacaq", "Gələcək qələbə yurduma", "Sabahlar Turanda açacaq", "Sən inan, durmadan addımla" misraları ilə təsvir olunub.

"Zəfər" marşı giriş ilə başlayır. 11 xanəli girişdə biz mövzunun əsas qayəsi, onun ritmik şəkli ilə yaxından tanış olub, həmçinin bəstəkar tərəfindən təqdim olunan mövzu dairəsini izləyə bilirik. Girişin əhəmiyyəti o qədər böyükdür ki, o hər bəndin əvvəlində qısaldılmış şəkildə səslənərək sanki ümumi ab-havaya bizi kökləyir. Əsərin əsas məqamı Şüştərdir ("fa" tamamlayıcı tonlu, "do" tonikalı). Bu məqam Üzeyir bəyin təbirincə desək *".....dərin kədər"* [6, s.16] hissləri oyadır. Lakin müəllif tərəfindən təqdim olunan "Zəfər" marşında tamamilə fərqli hissləri – ruh yüksəkliyi, sevinci, mübarizlik əzmini yaşayırıq. Girişdə "fa" səsi yəni, Şüştərin tamamlayıcı tonu üzərində orqan punktu izləyə bilirik. Bu isə Şüştər məqamı üçün xas olaraq başqa məqama keçidi imkansız edir, nəticədə məqam qapalılığını yaradır. Girişdə xanəndənin partiyasında isə "Azərbaycan" sözünün kiçik not uzunluqları vasitəsilə Şüştər məqamının tonikasına yəni, "do" səsinə istinad özünü göstərir.






I bənd ümumilikdə 4 cümlədən ibarətdir. Birinci cümlə Şüştərin tərkib aralıq məqamının musiqi məzmununu əhatə edir. Onun istinad pilləsi isə VII pillə “re bemol” səsi mətn daxilində vurğulansa da cümlənin yarım kadansı VI pillədə yəni, “do” səsi üzərində qurulur. Birinci cümlə ilə onun təkrarı arasında giriş hissəsinin musiqi materialı üzərində instrumental keçid verilir. 3-cü cümlə yeni musiqi materialına əsaslanaraq, özündən sonra eynilə təkrar olunur. Onu da qeyd edək ki, hər cümlə özü özlüyündə 2 xanəli ibarələrə bölünür. Musiqi cümlələrində təkrarlılıq olsa da poetik mətndə müxtəlif sözlərdən ibarət misralar oxunulur. Birinci bəndin musiqi forması aşağıdakı kimidir:

Bənd

a + inst.keçid + a + b + b

4x. 4x. 4x. 4x. 4x.

Bəndin 1 cümləsi




Bəndin 2 cümləsi




Bəndin sonunda kiçik keçiddən sonra 6 xanədən ibarət nəqərat səslənir. Nəqərat bəndin musiqi məzmununa əsaslanaraq sanki koda xarakterlidir, bəndə sonluq, tamamlanma funksiyasını daşıyır. Nəqəratın qeyri kvadrat quruluşlu cümləsi öz daxilində 3 xanəli cümlələrə bölünür. Kvinta məsafəsinə olan sıçrayış Şüştər məqamının tamamlayıcı ton (“fa”) ilə tonika (“do”) səsləri arasında yaranaraq, daha sonra sanki bu sıçrayışın pilləvari yüksələn hərəkətlə doldurulması baş verir. Həm 3-cü, həm də 6-cı xanələrdə tam kadans verilir (Nəqərat 3x+3x).

Əyani nümunədə marşın nəqərat hissəsini aşağıda təqdim edirik.




Gördüyümüz kimi, dünhyaşöhrətli sənətkar Firəngiz Əlizadənin qələmindən süzülən musiqi, yaratdığı təsiredici və böyük ruhverici şeir misraları, daxili aləminin qələbə əzmini riqqətə gətirən, qəlbinin ülvi hisslərini özündə əks

etdirən "Zəfər marşı" iri həcmli əsərin mahiyyətini özündə əks etdirməklə əsl vətənpərvərlik ruhu, vətənpərvərlik əzmi ilə seçilir. Musiqişünas, Əməkdar incəsənət xadimi Həcər Babayevanın müəllifi olduğu kitabda qeyd olunduğu kimi: *"Bu gün onun (Firəngiz Əlizadənin – L.Z.) əsərlərinin səsi Avropa, Asiya, Amerika qitələrindən gəlir və dünya musiqi kontekstində Firəngiz Əlizadə yaradıcılığı artıq çoxdandır ki, öz zirvəsini tapmışdır"* [2] sözlərinə dayaqlanaraq, biz də inanırıq ki, bu əsər də uzun illər müxtəlif ölkələrin xor və simfonik orkestrlərinin repertuarında səslənəcək və xalqın mübariz əzimini daim bütün dünyaya bəyan edəcəkdir.

## Ədəbiyyat siyahısı

1. Əliyeva M. Bəstəkar Firəngiz Əlizadənin müasir Azərbaycan musiqisinin inkişafında rolu. Bakı Mütərcim, 2007, s.171.
2. Babayeva H. Firəngiz Əlizadə dünya şöhrətli bəstəkarımız. Bakı, Vətən oğlu NP MMC-nin mətbəəsi, 2018, s.256.
3. Təhmirazqızı S. Firəngiz Əlizadə "İntizar" operası və "Zəfər marşı"/ "Musiqi məbədi Şuşa". Bakı, Tuna, 2025. s.116-120.
4. Сохор А.Н. Теория музыкальных жанров: задачи и перспективы // Теоретические проблемы музыкальных форм и жанров. – Москва, Музыка, 1971. – с. 292–309.
5. Цуккерман В.А. Музыкальные жанры и основы музыкальных форм. – Москва, Музыка, 1964. – 159 с.
6. Hacıbəyli Ü. Azərbaycan xalq musiqisinin əsasları. Bakı, Apastrof çap evi, 2010, 176 s.

## Notoqrafiya

7. Əlizadə F. Zəfər marşı (xor və fortepiano üçün). Bakı, 2020, s.7.

## Saytoqrafiya

Zəfər marşı / UTL: https://azcomposersunion.com.az/2023/04/30/z%C9%99f%C9%99r-marsi-musigi-v%C9%99-soz-fir%C9%99ngiz-%C9%99lizad%C9%99/

**Leyla Zohrabova Ramiz gizi**

## THE WORLD-FAMOUS COMPOSER FIRANGIZ ALI-ZADE: "THE VICTORY MARCH"

**Summary**: The presented article analyzes the "Victory March" by the Professor Firangiz Alizadeh, Chairperson of the Union of Azerbaijani Composers, People's Artist, UNESCO`s Artist of the World, Corresponding Member of ANAS, and recipient of the "Shohrat" and "Sharaf" orders. The article provides information on the composer's works dedicated to patriotism and the concert halls where they were first performed. It also discusses the evolution of the march genre from its origins to expansion across borders, strengthening ties with other genres, transition into concert music while preserving its core essence, as well as its use within large-scale works. These points are specifically substantiated through the example of the "Victory March", where the history of its creation, performance venues, sheet music publications, and theoretical aspects are analyzed based on visual musical notation.

**Key words:** Firangiz Alizade, " the Victory March", march genre, patriotism theme, mode, form, analysis.

**Лейла Зохрабова Рамиз кызы**

## ВСЕМИРНО ИЗВЕСТНЫЙ КОМПОЗИТОР ФИРАНГИЗ АЛИЗАДЕ: «МАРШ ПОБЕДЫ»

**Резюме:** В представленной статье объектом анализа является «Марш Победы» председателя Союза композиторов Азербайджана, Народной артистки, «Артиста мира» ЮНЕСКО, члена-корреспондента НАНА, кавалера орденов «Шохрат» и «Шараф», профессора Фирангиз Ализаде. В работе представлена информация о произведениях композитора на патриотическую тему и концертных залах, где они впервые исполнялись. Также рассматривается история развития жанра марша, выход за его первоначальные границы, укрепление связей с другими жанрами, переход в концертную музыку с сохранением основной сути, а также использование марша внутри крупномасштабных произведений. Вышеизложенное обосновано на примере «Марша Победы»; проведен анализ теоретических аспектов на основе истории создания произведения, мест исполнения, нотных изданий и наглядных нотных примеров.

**Ключевые слова:** Фирангиз Ализаде, «Марш Победы», жанр марша, патриотическая тема, лад, форма, анализ.

**Məqalənin redaksiyaya daxilolma tarixi: 14.04.2026**

**Məqalənin çapa qəbul olunma tarixi: 20.04.2026**